# Uzun ayrılıqdan sonra doğma yurdun qoynuna dönmək böyük xoşbəxtlikdir

Otuz ildən çox idi ki, Zəngilanda gecələmirdik, səhərləri doğma ocaqlarımızda açmırdıq. O günün həsrəti ilə yaşayırdıq. Şükürlər olsun ki, otuz ildən sonra həsrətə son qoyuldu, ılıq bir payız günündə arzularımıza çatdıq, istəklərimizə qovuşduq. Bir ildən çoxdur ki, Zəngilan rayonunun Ağalı kəndinə qayıtmış sakinlər də səhərlərini doğma el-obalarında açır, günəşin doğmasını hər gün böyük sevinc içində qarşılayırlar.





Ağalı kəndində qarşılaşdığımız insanların üz-gözündən sevinc süzülürdü. Onlar əvvəlki illərdəkindən bəxtəvər və xoşbəxt görünürdülər. İşğaldan azad olunandan sonra salınmış bu kəndin küçə və məhəllələrini gəzirik. Hər tərəfdə səliqə-sahman və təmizlik hökm sürür. Bir xətt boyunca çəkilmiş səkilər, yerə döşənmiş daşlar, salınmış yaşıllıq, sıra ilə əkilmiş ağaclar ətrafa bənzərsiz gözəllik verir, baxanların zövqünü oxşayır. Evlərin həyətlərində sakinlər gözə dəyir. Hava elə də soyuq olmadığından camaat həyətbacada işləyir, səliqə-sahman yaradır.

Uzun illər elindən, obasından uzaq düşmüş adamlar doğma ocaqlarına qayıdıblar. Qayıdan kimi də torpaqla dil tapıb əkin-biçin işinə başlayıblar. Həyətlərin hamısında yaşıllıq gözə dəyir. Kənd sakinləri dövlətin onlara tikdiyi evlərə döndükləri gündən Ağalı kəndini daha da gözəlləşdirməyə çalışırlar.

Evlərin birinin qarşısından keçəndə həyətdə səliqə-sahman yaradan sakinlərin işgüzarcasına çalışması diqqətimizdən yayınmadı. Uzun çəkən həsrətdən sonra kəndlərinə dönmüş insanlar torpaqlarını əkib-becərirdilər. Gələn il götürəcəkləri bol məhsulun bünövrəsini qoyurdular.

Bu zəhmətkeş insanlarla görüşmək üçün həyətlərinin qapısını döydük. Evin ağsaqqalı yaxınlaşıb bizi qarşıladı. Əl verib görüşdük, yaxından tanış olduq. Öyrəndik ki, Meylağa Quliyev 1993-cü ilin oktyabrında doğma kəndləri olan Ağalıdan ailəsi ilə birlikdə qaçqın düşüb. Ermənilər Meylağa kişini iki oğlu - Xaliq və İlqarla doğma ocaqlarından didərgin salandan sonra çox çətin günlər yaşamalı olublar. Həmin vaxtlar böyük oğlu Xaliq səkkiz, balaca İlqar isə iki yaşın içində olub.

- Getsin o günlər bir də gəlməsin, - deyə Meylağa Quliyev sözə başladı. - Erməni işğalçıları bizi doğma ocaqlarımızdan didərgin salandan sonra olmazın əzab-əziyyət çəkdik. Bir müddət Nizami rayonundakı uşaq bağçasında, sonra isə Sabunçu rayonunda məskunlaşdıq. Harada olsaq, harada yaşasaq da, kəndimizin yerini, rahatlığını heç nə vermirdi. Doğma ocaqlarımızın həsrətini çəkir, tezliklə el-obamıza qayıtmağı arzulayırdıq. Ümid edirdik ki, gündən-günə güclənən, qüdrətlənən ordumuz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı erməni işğalçılarından mütləq azad edəcək. Ona görə də doğma ocaqlarımıza dönmək ümidi ilə yaşayırdıq. Şükürlər olsun ki, 2020-ci ilin payız günlərində ümidlərimiz çiçək açdı. İllərdən bəri ürəklərimizi sıxan həsrətə, intizara son qoyuldu. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı. Həmin günlər sevincimizin həddi-hüdudu yox idi. Prezident İlham Əliyevin televiziya ilə xalqa müraciətini böyük səbirsizliklə gözləyirdik. Dövlət başçısı qoynunda dünyaya göz açdığımız Ağalı kəndinin erməni işğalından azad olunduğunu 21 oktyabr 2020-ci ildə elan etdi. Bu xəbəri eşidəndə sevincdən gözlərim yaşardı, evdə hamı bir-birini təbrik etdi.

Xeyli müddətdir ki, Prezident İlham Əliyevə minnətdarlıq hissi ilə doğma ocaqlarımıza dönmüşük. Çox sağ olsun dövlətimiz ki, bizim üçün hərtərəfli şəraiti olan gözəl evlər tikib. Bu evlərdə çox rahat yaşayırıq. Hamıya əkin-biçin üçün geniş həyət də verilib. İndi təmizlik işləri aparırıq. Ötən il əkilən ağaclar artıq xeyli böyüyüb. Kəndimizin torpağı çox güclüdür. Gələn il bu ağaclar artıq bar verəcək. Şükürlər olsun ki, əzab-əziyyətlərlə dolu qaçqınlıq həyatı arxada qaldı. İndi ömrümüzün ən gözəl günlərini yaşayırıq.

- Mən doğma ocaqlarımızdan qaçqın düşəndə səkkiz yaşın içindəydim, - deyə Xaliq Quliyev söhbətimizə qoşuldu. - Yaşım az olsa da, həmin günlərdə baş verən hadisələri olduğu kimi xatırlayıram. Erməni işğalçılarının hücumu zamanı camaatın ev-eşiyindən necə həyəcanla qaçdığı heç vaxt yadımdan çıxmayacaq. Bu gün böyük sevinc içindəyik. Çünki otuzillik həsrətə son qoyulub, doğma ocaqlarımıza qayıtmışıq. Ömrümüzün ən xoşbəxt günlərini yaşayırıq. Üzümüz gülür, qəlbimiz açılır. İndi həyətimizin torpağını alaq otlarından, keçən il əkilmiş tağların, şitillərin qurusundan təmizləyirik, sahəni gələn ilin əkininə hazırlayırıq. Torpaqda işlədikcə hiss edirik ki, əsl sahiblərini qoynuna aldığına görə onun da üzü gülür...

Doğma ocaqlarına döndüyünə görə kiçik qardaş İlqar da özünü xoşbəxt sanır. Söhbət zamanı o, dedi ki, erməni işğalçıları Ağalını ələ keçirəndə yaşı az olub. Ona görə də heç nə xatırlamır. Kəndə qayıdanda evlərin vəhşicəsinə dağıdıldığını görəndə ermənilərə olan nifrəti daha da artıb: "Yer üzündə ermənidən vəhşi, qəddar ikinci bir millət yoxdur. Bütün evlər barbarcasına dağıdılıb. Ağaclar kəsilib, yaşıllıqlar məhv edilib. Hər addımda erməni vəhşiliyinin, erməni qəddarlığının izi qalıb. Böyük sevinc içində doğma torpaqlarına qayıdan biz, keçmiş məcburi köçkünlər evimizi, həyətimizi daim səliqə-sahmanda saxlamağa çalışırıq. Bunun üçün həmişə işləyirik, çalışırıq. Dövlətimiz bizim kənddə yaşamağımız və işləməyimiz üçün hərtərəfli şərait yaradıb. Gecələr Ağalı kəndində yanan gur işıqlar ətrafı gündüz kimi göstərir. Buna görə də doğma ocaqlarımız təkcə gündüzlər deyil, gecələr də çox yaraşıqlı və bənzərsiz görünür. Kənd başdan-ayağa işığa, nura boyanır. Belə gözəl bir şəraitdə yaşamaq da, işləmək də olduqca xoşdur. Bizim üçün belə yüksək səviyyədə şərait yaratdığına görə bütün kənd camaatı adından Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm".

Keçmiş məcburi köçkünlərdən eşitdiyim xoş duyğulu, minnətdarlıq dolu sözlərdən bir daha əmin olduq ki, uzun illər həsrətini çəkdiyin doğma ocaqlarının qoynuna qayıtmaqdan böyük xoşbəxtlik yoxdur. Əminlik hissi ilə demək olar ki, yaxın zamanlarda belə xoşbəxt günləri yaşamaq bütün keçmiş məcburi köçkünlərə nəsib olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Davamlı inkişaf strategiyasının yeni hədəfləri






Mingəçevir Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda keçirilən II Beynəlxalq elmi konfrans uğurla başa çatıb.

Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə baş tutan beynəlxalq konfrans MDU, Türkiyənin Qazi Universiteti, Ankara Hacı Bayram Veli Universiteti, Kayseri Universiteti, Litvanın Mikolas Romeris Universiteti, Kiyev Milli Texnologiya və Dizayn Universiteti və Qırğız İqtisad Universitetinin birgə təşkilatçılığı ilə keçirilib. Beynəlxalq konfransa dünyanın 9 ölkəsinin ali təhsil müəssisələri, elmi tədqiqat institutları və müvafiq qurumlardan akademik heyət üzvləri, alimlər və ekspertlər qatılıblar.

Konfransın açılışında çıxış edən MDU-nun rektoru Şahin Bayramov tədbirin davamlı iqtisadi inkişafın qlobal trendləri, ekoloji dayanıqlılığın təmini, sosial-iqtisadi hədəflərin dayanıqlı inkişaf məqsədləri ilə uyğunluğu, Dördüncü Sənaye İnqilabından irəli gələn reallıqlar, regionların tarazlı inkişafı, davamlı enerji təminatı, postkonflikt dövründə müasir tendensiyalar, keyfiyyətli təhsil sahəsində milli və beynəlxalq təcrübələr, yüksək rifah cəmiyyəti və digər mövzularda həyata keçirilən tədqiqatların əsas nəticələrinin təqdim olunması və elmi diskussiyaların aparılması məqsədi daşıdığını diqqətə çatdırıb. Vurğulayıb ki, BMT tərəfindən qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", eləcə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası", digər milli və beynəlxalq strateji sənədlərdən irəli gələn vəzifələrin icrasına töhfə verilməsi məqsədilə beynəlxalq konfransın dövri olaraq keçirilməsi nəzərdə tutulub.

MDU-nun evsahibliyi ilə ikinci dəfə keçirilən konfransa həm yerli, həm də xarici ictimaiyyət tərəfindən marağın daha da artdığını qeyd edən rektor ölkəmizdən və xaricdən ümumilikdə 562 tezis və məqalə daxil olduğunu bildirib.

Konfransın mövzusunun aktuallığından və əhəmiyyətindən bəhs edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov davamlı inkişafın təmin edilməsinin Azərbaycanın dövlət siyasətinin prioritetlərindən olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə ali təhsil müəssisələrinin üzərinə düşən öhdəliklərdən bəhs edən nazir müavini konfransda təqdim ediləcək məruzələrin və aparılacaq müzakirələrin faydalı olacağına əminliyini bildirib, konfrans iştirakçılarına uğurlar arzulayıb.

Mingəçevirdə aktual qlobal mövzuda keçirilən beynəlxalq elmi konfransda iştirak etməkdən məmnunluğunu bildirən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən siyasi kursun Azərbaycanı dünyanın qüdrətli dövlətlərindən birinə çevirdiyini vurğulayıb. Tarixi Zəfərdən sonra Azərbaycanın davamlı inkişaf strategiyasında yeni mərhələnin başlandığını qeyd edən icra başçısı bununla bağlı qlobal trendləri, milli təcrübələri və yeni hədəfləri özündə ehtiva edən beynəlxalq konfransın maraqlı və məhsuldar olacağına inandığını söyləyib.

Daha sonra plenar iclas keçirilib. Bundan sonra isə konfrans 10 üzbəüz və 18 onlayn bölmə iclasları ilə işini davam etdirib. Beynəlxalq elmi konfrans çərçivəsində MDU və Türkiyənin Kayseri Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb. Protokol qarşılıqlı maraq doğuran sahələrdə universitetlərin ortaq fəaliyyətlərini ehtiva edir.

Beynəlxalq elmi konfransın xarici qonaqları Heydər Əliyev Mərkəzini, "Azərbaycan İES" MMC-ni və Mingəçevir Sənaye Parkını ziyarət ediblər.

Həmçinin beynəlxalq elmi konfransın qonaqları MDU-nun tələbə və magistrantları üçün ustad dərsləri keçiblər. Daha sonra qonaqların MDU-nun akademik və inzibati heyət üzvləri ilə görüşləri təşkil edilib. Görüşlərdə bir sıra konkret istiqamətlər üzrə əməkdaşlığın reallaşdırılmasına dair ilkin razılıqlar əldə edilib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Müsabiqələrin qalibləri mükafatlandırılmışlar

Ağstafada "Heydər Əliyev İli" çərçivəsində keçirilən müxtəlif növ idman və intellektual bilik yarışlarında fərqlənən qaliblər mükafatlandırılmışlar.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xidmətlərindən danışmış, onun respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə canı qədər sevdiyi Azərbaycanın iqtisadi yüksəlişi naminə gördüyü işləri diqqətə çatdırmışdır.

"Heydər Əliyev və Azərbaycan tarixi", "Əsrin Lideri" adlı intellektual bilik yarışmalarının, "Heydər Əliyev və bütöv Azərbaycan" adlı şeir və müəllimlər arasında keçirilən "Tarixi abidələrdə təhsilin rolu" adlı bilik müsabiqələrinin, eləcə də pnevmatik tir və mini-futbol yarışlarının qalibləri rayon icra hakimiyyətinin fəxri fərmanları və qiymətli hədiyyələri ilə təltif olunmuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# AZƏRTAC Fransa mətbuatında əməkdaşları ilə bağlı yayılan dezinformasiyanı qəti şəkildə pisləyir

Fransa mətbuatında guya AZƏRTAC-ın əməkdaşlarının Yeni Kaledoniyaya Fransada sabitliyi pozmaq üçün göndərildiyi, hətta onların "casus" adlandırıldıqları dezinformasiya tirajlanır.

Xatırladaq ki, AZƏRTAC-ın iki jurnalisti redaksiya tapşırığını yerinə yetirmək üçün 2023-cü il dekabrın 3-də Yeni Kaledoniyaya ezam olunmuşdular. Onlardan biri GUYA VİZASININ OLMAMASI bəhanəsi ilə ölkəyə buraxılmayıb, bir sutka polis nəzarətində saxlanıldıqdan sonra ölkədən çıxarılıb. Uzun müddətdir ki, jurnalist fəaliyyəti ilə məşğul olan əməkdaşlarımıza "casus" damğasının vurulması qəbuledilməzdir. Jurnalistimizə qarşı edilən haqsızlıqdan və bunun bütün dünyaya yayılmasından sonra belə bir yazının meydana çıxması onu göstərir ki, bu dezinformasiyanın arxasında Fransa rəsmi qurumları dayanır. Bu, Yeni Kaledoniyada jurnalistimizə qarşı törədilən haqsızlığı ört-basdır etmək cəhdindən başqa bir şey deyildir. Yeni Kaledoniyada azadlıq tələbi ilə yürüşə çıxanların haqq səsini dünyaya çatdırmaq istəyən jurnalistlərə Fransa hökumətinin bu cür qeyri-rəsmi formada "casus" damğası vurmaq cəhdi demokratiya, azad söz, media azadlığı kimi fundamental prinsiplərin tələblərinə qarşı çox böyük hörmətsizlikdir.

Jurnalistimizə qarşı Yeni Kaledoniyada edilən haqsızlığı hətta Kaledoniya İttifaqı siyasi partiyasının prezidenti Daniel Qoa da öz açıqlamasında pisləyib. Onun jurnalistimizə yazdığı məktubda deyilir: "Kaledoniya İttifaqı siyasi partiyasının prezidenti, Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) sözçüsü olaraq, 2023-cü il dekabrın 3-də Numeaya səfəriniz zamanı məruz qaldığınız ayrı-seçkiliklə əlaqədar Sizə tam dəstəyimi ifadə etmək istəyirəm. Biz bir daha müstəmləkə hökmranlığı altında olan xalqlarla bağlı məlumatların yayılmasına qarşı həqiqətən ifrat müstəmləkəçi münasibətinin şahidi olduq".

Feyk məqalədə qeyd edilir ki, Fransanın müdafiə naziri həmin ərəfədə Yeni Kaledoniyaya səfər edib və jurnalistlər də məhz bunu işıqlandırmaq üçün oraya gediblər. Həmçinin məqalədə jurnalistlərin "casus" olduğu yazılır. Bununla da onlar özlərini təkzib etmiş olurlar - bir tərəfdən yazırlar ki, jurnalistlər ora hadisələri işıqlandırmağa gediblər, ardınca isə onları "casus" adlandırırlar. Qeyd etməliyik ki, AZƏRTAC-ın jurnalistlərinə redaksiya tapşırığı məhz dekabrın 5-də keçirilmiş müstəqillik mitinqinin işıqlandırılması olub. Bundan əlavə, əməkdaşlarımız yerli kanak xalqının həyat tərzi, sosial-iqtisadi vəziyyəti, mədəniyyəti haqqında reportajlar hazırlamalı idilər. Təəssüf ki, verilən redaksiya tapşırıqları bir əməkdaşımızın ölkəyə buraxılmaması səbəbindən tam olaraq yerinə yetirilməyib.

AZƏRTAC məqalədə qeyd olunan absurd və cəfəng iddiaları qəti şəkildə rədd edir və bunu təxribat xarakterli feyk informasiya sayır. Fransa mediasının bu cür dezinformasiya yaymasını azad mətbuat göstəricisi yox, məhz beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq və həqiqətləri gizlətmək cəhdi kimi qətiyyətlə pisləyirik.

# Qərbi Azərbaycandan olan qaçqınların hüquqları bərpa edilməlidir




Cənubi Qafqazda azərbaycanlılara, eləcə də digər azsaylı xalqlara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya məsələlərinin ətraflı şəkildə tədqiqi tarixi zərurətdən irəli gəlir. Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı soydaşlarımızın Ermənistan ərazisindəki tarixi torpaqlarından kütləvi deportasiya edilməsinə siyasi-hüquqi qiymətin verilməsi haqqında fərmanından sonra bu məsələ sistemli şəkil almış, onun bugünkü nəslə və dünya xalqlarına çatdırılması daha da genişləndirilmişdir.

Bu siyasi kurs 20 ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xatırladaq ki, 24 dekabr 2022-ci ildə Prezident İlham Əliyevin tövsiyəsi ilə Azərbaycanın Qarabağ müharibəsindən sonrakı dövr üçün yeni strateji xəttini ehtiva edən Qərbi Azərbaycana Qayıdış Konsepsiyası qəbul olunub və Qərbi Azərbaycan İcması tərəfindən addım-addım həyata keçirilir. Sevindirici haldır ki, artıq bu ümummilli məsələyə nəinki Azərbaycan əhalisi, həm də dünya azərbaycanlıları qoşulub. Bu məsələdə dövlət və qeyri-dövlət qurumları ilə yanaşı, Heydər Əliyev Fondunun dəstəyi daha diqqətçəkəndir.

Qərbi Azərbaycana Qayıdış Konsepsiyası ilə bağlı Milli Məclisdə məsələnin müxtəlif aspektlərinə dair dörd dəfə geniş dinləmə keçirilib. Parlamentin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə növbəti ictimai dinləmə parlamentin Gənclər və idman komitəsinin təşkilatçılığı ilə "Keçmişdən gələcəyə çağırış: Qərbi Azərbaycana qayıdış fəlsəfəsinə gənclərin baxışı" mövzusunda reallaşıb.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində, lokal xarakterli antiterror tədbirləri zamanı qazandığı qələbələrin ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməklə yanaşı, Qərbi Azərbaycandan olan soydaşlarımızın da öz tarixi torpaqlarına qayıdışı üçün yaratdığı imkanlardan söz açıb. O, Ermənistandan qovulmuş azərbaycanlıların hüquqlarının bərpasının, Qərbi Azərbaycana qayıdış məsələsinin ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu vurğulayaraq, soydaşlarımızın hüquqlarının bərpası, onların dinc şəkildə öz tarixi torpaqlarına qayıtması işində gənclərin üzərinə düşən vəzifələr barədə fikirlərini bölüşüb.

Qərbi Azərbaycan İcmasının (QAİ) İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında söylədiyi nitqi ilə soydaşlarımızın hüquqlarının bərpasında yeni bir mərhələyə - Qayıdış Konsepsiyasının həyata keçirilməsi mərhələsinə start verildiyini bildirib. İcmanın sədri Qərbi Azərbaycan ərazisində tarixi abidələrimizin, mədəni irsimizin tanıdılması, təbliğ olunması, qərbi azərbaycanlıların qayıdış tələbinin beynəlxalq müstəviyə çıxarılması ilə bağlı gördüyü işlər barədə açıqlamasında bütün azərbaycanlıların, o cümlədən gənclərin fəallığının artırılmasını xüsusi vurğulayıb.

Dinləmədə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov (QAİ-nin Ağsaqqallar Şurasının sədri), Musa Quliyev (QAİ-nin Nəzarət-təftiş komissiyasının üzvü), Gənclər və idman komitəsi sədrinin müavini Şahin İsmayılov, deputatlar Hikmət Məmmədov (QAİ-nin İdarə Heyətinin sədr müavini), Kamal Cəfərov (QAİ-nin Gənclər Birliyinin sədr müavini), Ramil Həsən (QAİ-nin İdarə Heyətinin sədr müavini), Etibar Əliyev (QAİ-nin Ziyalılar Şurasının üzvü), Sevinc Hüseynova, Cəbi Quliyev, Elnur Allahverdiyev, Vüqar İskəndərov və Müşfiq Cəfərov, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, İndira Hacıyeva və digər şəxslər çıxışlarında azərbaycanlıların indiki Ermənistandan - öz dədə-baba yurdlarından kütləvi şəkildə didərgin salınması ilə bağlı həqiqətlərin, orada qalan mədəni irsimizin, tariximizin öyrənilməsi işində və Qərbi Azərbaycana qayıdış prosesində gənclərin rolunun artırılması və digər məsələlər barədə fikirlərini bildiriblər, təkliflərini səsləndiriblər.

Qərbi Azərbaycan İcması son bir il ərzində siyasi-mədəni müstəvidə dünyanın nüfuzlu beynəlxalq qurumları və qeyri-hökumət təşkilatları ilə geniş əlaqələr qura bilib. Dünyada haqqın, ədalətin bərpası, insan hüquqlarının pozulmasının qarşısının alınması və problemlərin aradan qaldırılması istiqamətində atdığı addımlar, məktub, müraciət və bəyanatları böyük əks-səda doğurur.

Qərbi Azərbaycan İcması dünyanın bütün beynəlxalq təşkilatlarından Azərbaycana qarşı qərəzli siyasətdən əl çəkməyi və bölgədə sülhün bərqərar olunmasına mane olmamağı tələb edir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***